# Xeyirxahlıq, nəciblik, mərdlik təcəssümü – Azərbaycan qadını

Tarixən Azərbaycan qadını xalqımızın milli ənənələrinin yaranmasında və zənginləşməsində mühüm rol oynamışdır. Çoxəsrlik, zəngin tariximizdə müstəsna yeri olan mərd, cəsur ləyaqətli qadınlarımız zaman-zaman dövlətçiliyimizin qurulmasında, möhkəmləndirilməsində əvəzsiz xidmətlər göstərmişlər. Cəmiyyətdəki yerini və rolunu müəyyənləşdirərək hər zaman üzərlərinə düşən vəzifələri şərəflə yerinə yetirmiş, millətimizin, xalqımızın adını, hörmətini yüksəklərə qaldırmış, cəsarəti, təəssübkeşliyi, vətənpərvərliyi ilə həmişə seçilmişlər. Dünyaya mərd, cəsur, qəhrəman oğullar gətirən, böyük alimlər, elm adamları bəxş edən analarımız tarixin bütün gərdişlərinə sinə gərməyi bacarmış, zaman keçdikcə cəmiyyətdə, özlərinə məxsus yeri tutmuşlar.



Keşməkeşli, mürəkkəb və şərəfli inkişaf yolu keçmiş Azərbaycan qadını XX əsrin əvvəllərində ölkəmizdə baş verən siyasi, iqtisadi və mədəni proseslərin fonunda daha da fəallaşdı. XX əsrdə xalqımızın həyatında ən böyük hadisələrdən biri olan savadsızlığın ləğvi qadınlarımıza daha çox sirayət etmişdir. Lakin Azərbaycan tarixində qadın məsələsi, qadın problemi yalnız ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə dövlət səviyyəsinə qalxa bilmişdi. Məhz onun ardıcıl fəaliyyəti və dəstəyi nəticəsində ölkədə qadın hərəkatı güclənmiş, Azərbaycan qadınının həyatın bütün sahələrində özünü təsdiqləməsinə lazımi şərait yaradılmış, ən ləyaqətli, ən bacarıqlı qadınlarımız müxtəlif yüksək vəzifələrə irəli çəkilərək vətənimizin inkişafına öz töhfələrini vermişlər. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurulmuş, ölkəmizdə demokratiya prinsipləri yaradılmış və qadınlarımız gənc, müstəqil dövlətimizin ictimai-siyasi həyatında daha fəal iştirak etməyə başlamışlar. Ümummilli liderin ölkəmizdə qadınlara göstərdiyi diqqət və qayğı, onlara yaradılmış şərait, qadınların daxili istedadının, potensialının üzə çıxarılması, biliyə, təhsilə, elmə, mədəniyyətə olan marağının dəyərləndirilməsi Azərbaycan qadınını daha yüksəklərə qaldırdı. Bu barədə ümummilli liderimiz demişdir: "Dövlət quruculuğumuzun bütün sahələrində xüsusi xidmətləri olan Azərbaycan qadınları ölkəmizdə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi, mənəviyyatımızın inkişaf etdirilməsi üçün bu gün də var qüvvəsini sərf edirlər".

Bu gün qadınlarımızın cəmiyyətin həyatında xüsusi rol oynaması ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş ənənələrin təntənəsidir. Belə ki, ümummilli liderin Azərbaycana rəhbərliyinin bütün dövrlərində qadınlarımızın elm, mədəniyyət, sənaye, kənd təsərrüfatı və digər sahələrdəki xidmətləri xüsusi qeyd olunmuş, qiymətləndirilmişdir. Bu qayğı və diqqətin nəticəsində akademik, tibb elmləri doktoru Zərifə Əliyeva, filologiya elmləri doktoru, professor Aida İmamquliyeva, tarix elmləri doktoru, akademik Nailə Vəlixanlı, tibb elmləri doktoru, professor Sayalı Qazıyeva kimi alim, Xalq artistləri Fidan və Xuraman Qasımova, Şəfiqə Məmmədova, Əmək qəhrəmanları Zəminə Aslanova, Xuraman Abbasova, Tərlan Musayeva kimi bir çox xanımlar bütün ölkədə tanınmış, dərin nüfuz və ehtiram qazanmışlar. Ümumiyyətlə, Azərbaycan qadınları həm elmdə, mədəniyyətdə, təhsildə, səhiyyədə, həm də iqtisadiyyatın bütün sahələrində - sənayedə, kənd təsərrüfatında, ticarətdə özünü göstərə bilmiş, ölkəmizin inkişafına öz töhfələrini vermişlər.

Ulu öndər Heydər Əliyev tərəfindən müəyyən olunmuş dövlət siyasəti bu gün möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illərdə Azərbaycanda çox mühüm dəyişikliklər baş vermişdir. Prezidentimizin rəhbərliyi altında ailənin inkişafı cəmiyyətdə qadının yerinin möhkəmləndirilməsi, uşaq hüquqlarının təmin edilməsi məqsədilə həyata keçirilən ardıcıl tədbirlər bu sahəyə dövlət dəstəyini təmin edir. Ölkə rəhbəri qadınların cəmiyyətdə rolunu yüksək qiymətləndirərək demişdir: "Qadınlar dünya tarixinin hər bir dövründə sülhün, əmin-amanlığın və dinc-yanaşı yaşamağın təminatçısı olmuşlar".

Hazırda Azərbaycan qadını bütün sahələrdə öz layiqli yerini tutub. Qadınlarımız dövlət strukturlarında, icra orqanlarında təmsil olunur, insanların sağlamlığının keşiyində dayanır, milli təhsilimizin inkişafında, gənclərimizin təlim-tərbiyəsində yaxından iştirak edirlər. Qabiliyyəti, bacarığı, dərin zəkası, möhkəm iradəsi ilə hər zaman öndə olan Azərbaycan qadını səmərəli fəaliyyəti ilə dövlətimizə, dövlətçiliyimizə sədaqətlə xidmət edir, gündən -günə inkişaf edən, nüfuzlu və qüdrətli dövlətə çevrilən Azərbaycanımızın tərəqqisində əllərindən gələni əsirgəmirlər. Onlar dövlət quruculuğumuzun bütün mərhələlərində müstəsna rol oynayaraq, ölkəmizdə ictimai sabitliyin və əmin-amanlığın bərqərar olmasında, milli dövlətçiliyimizin daha da möhkəmlənməsində var qüvvələrini sərf edirlər.

Tarixin bizə qazandırdığı görkəmli şəxsiyyət, müasir Azərbaycan qadınlarının ən parlaq nümayəndəsi Mehriban xanım Əliyevadır. Ölkənin Birinci vitse-prezidenti, xoşməramlı səfir, humanizm və mərhəmət carçısı və nəhayət mükəmməl xanım obrazını bütün parametrləri öz şəxsiyyətində təcəssüm etdirən əsl Azərbaycan qadınıdır. Müstəqil Azərbaycanın bugünkü ictimai həyatında birinci xanımımız Mehriban Əliyevanın öz xüsusi, əvəzolunmaz yeri var. O, insanların düşüncəsinə mahiyyət etibarilə çox geniş və yeni məfhumlar gətirdi: qadınlar nə qədər zərif olsalar da, onlar milli adət-ənənələrə, ailə dəyərlərimizə və ali qanunlarımıza arxalanaraq böyük nailiyyətlər qazana bilərlər. Mehriban xanım Birinci vitse-prezident kimi hər kəsi birmənalı şəkildə bunun mümkünlüyünə inandırdı. İctimai-siyasi fəaliyyətinə və birinci xanım kimi xidmətlərinə, qloballaşan dünyaya, ümumbəşəri dəyərlərə verdiyi töhfələrə görə o, Azərbaycanın və dünyanın bir sıra ali mükafatlarına layiq görülüb. Sədaqətli həyat yoldaşı, qayğıkeş ana olmaqla bərabər, ölkəmizdə, hətta bütün dünyada öz ictimai fəallığı ilə seçilən Mehriban xanım Əliyeva bütün varlığı, ruhu, duyğuları ilə Azərbaycanın, Şərqin və türk dünyasının nəciblik, xeyirxahlıq nümunəsidir.

Azərbaycan qadını bu günümüzün ictimai-siyasi xadimi, alimi, həkimi, müəllimidir. Öz dünyagörüşü, intellektual potensialı, biliyi ilə dünya qadınları arasında yüksək mövqeyi ilə seçilən Azərbaycan qadını hər şeydən öncə övladlarını milli ruhda, əsl vətənpərvər ruhunda böyüdüb boya-başa çatdıran qəhrəmanlar anasıdır. Xeyirxahlıq, nəciblik, mərdlik təcəssümü, mətin, xoşniyyətli Azərbaycan qadınları, bayramınız mübarək!

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

8 Mart

Beynəlxalq Qadınlar Günüdür